# HƏSƏNOV MƏHƏMMƏD SEYİDALI OĞLU
## (1930-1998)
## Dilçi

20 mart 1930-cu ildə Cəbrayıl rayonunun Daş-kəsən kəndində anadan olmuşdur. 1946-cı ildə Qaryagində (indiki Füzulidə) Pedaqoji texnikumunu, 1953-cü ildə Bakıda ADPU-nun Dil və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1956-cı ildə Təhsil Problemləri İnstitutunun Azərbaycan dili tədrisinin metodikası üzrə aspiranturasını bitirmişdir. Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda, Bakı Slavyan Universitetində işləmişdir. 1973-cü ildən ömrünün sonuna qədər BDU-da işləmiş, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasında əvvəlcə dosent, 1992-ci ildən isə professor vəzifəsində çalışmışdır. 1962-ci ildə «V sinifdə sifət bəhsinin tədrisi» mövzusunda namizədlik, 1989-cu ildə isə «Azərbaycan dili sintaksisi tədrisinin linqvistik-didaktik əsasları» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 100-ə yaxın elmi-metodik əsərin müəllifidir.